# İlahiyyat institutunun kollektivi Qəbələyə səfər edib

***Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşları "Vətənpərvərlik ruhunun yüksəldilməsi" adlı silsilə tədbirlər çərçivəsində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Qəbələ rayonuna səfər ediblər.***

İnstitutun nümayəndə heyəti əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, ulu öndərə ehtiramlarını bildiriblər. Sonra qonaqlar şəhər məscidi ilə tanış olublar.

Daha sonra tolerantlığın və multikulturalizmin müasir nümunəsi olan Nic qəsəbəsinə gələn müəllimlər və tələbələr Udi Mədəniyyət Mərkəzi və "Çotari" alban-udi-xristian kilsəsi ilə tanış ediliblər.

Günün ikinci yarısında qonaqların və rayon təhsil işçilərinin bir qrupunun iştirakı ilə Qəbələ Mədəniyyət Mərkəzində milli-vətənpərvərlik mövzusuna həsr edilmiş tədbir keçirilib. Toplantıda Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə tədbir iştirakçılarını təbrik edərək bildirib ki, 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali



Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması haqqında qərar qəbul edilib. Dekabrın 25-də isə Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul edib. Qeyd olunub ki, ulu öndərin dünya azərbaycanlılarının həmpəyliyini təmin etmək yolunda göstərdiyi əvəzolunmaz xidmət əsl vətənpərvərlik, millətsevərlik nümunəsidir.

RİH başçısının müavini Heydər Əliyev siyasi fəlsəfəsinə, onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti ilə ulu öndərin bu sahədəki xidmətlərini bu gün uğurla davam etdirdiyini bildirib. Dövlət başçısının xaricdə yaşayan azərbaycanlıların ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsindəki sistemli və yorulmaz fəaliyyəti nəticəsində, Azərbaycanın beynəlxalq aləmdə siyasi nüfuzunun yüksəldiyi, dünya birliyində öz layiqli yerini tutduğu və dünya azərbaycanlılarının həmrəy olması işində əhəmiyyətli rol oynadığı diqqətə catdırılıb.

Ətayə Osmanova gənc nəslin milli ruhda yetişməsi, milli təəssübkeşliyin, torpağa bağlılığın, dövlətə sevginin gücləndirilməsi üçün bu səpkidən olan maarifləndirici tədbirlərin mühüm əhəmiyyətə malik olduğunu qeyd edib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov çıxışında bildirib ki, ölkə Prezidentinin 9 fevral 2018-ci il tarixli sərəncamı ilə bu təhsil müəssisəsinin yaradılmasında məqsəd Azərbaycanda tarixən mövcud olmuş yüksək mənəvi dəyərlərin qorunub saxlanması, eyni zamanda ilahiyyat sahəsində peşəkar mütəxəssislərin yetişdirilməsidir.

Bildirilib ki, institutun tələbələrinin vaxtaşırı olaraq bölgələrə səfərləri təşkil olunur. Onlar burada tarixi abidələrlə, yerli əhalinin adət və ənənələri ilə tanış olurlar.

Ceyhun Məmmədov qeyd edib ki, ermənilər zaman-zaman alban mədəniyyətinə, alban tarixi abidələrinə sahib çıxmağa çalışırlar. Bizim Qəbələyə səfərimiz çərçivəsində Nic qəsəbəsində olmağımızda əsas məqsəd odur ki, tələbələr burada ermənilərə aidiyyatı olmayan tarixi abidələrlə, o cümlədən 200 yaşlı alban kilsəsi ilə, hələ qədimdən burada yaşayan udilərin adət və ənənələri ilə tanış olsunlar.

Tədbirdə təhsil şöbəsinin müdiri Arifə Bayramova, "Qəbələ" qəzetinin məsul katibi Qüdrət Səmədov və başqaları çıxış edərək bu cür tədbirlərin gənclərin vətənpərvərlik və milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə olunmasında mühüm rol oynadığını vurğulamışlar.

Tədbiri rayon icra hakimiyyəti başçısının müavini Ətayə Ocmanova yekunlaşdırmışdır.

**Vüsal SƏMƏDOV,**
**RİH-nin informasiya təminatı və təhlili sektorunun aparıcı məsləhətçisi.**

## Qəbələ rayon prokurorluğu əməkdaşları tərəfindən 2019-cu il ərzində vətəndaşların yaşayış yerləri üzrə qəbulunun və hüquqi təbliğat işlərinin aparılmasına dair

## QRAFİK

| Sıra № | Qəbulun keçiriləcəyi tarix | Qəbulun keçiriləcəyi yer və vaxt | Əhatə olunan yaşayış məntəqələri | İcraçı |
|---|---|---|---|---|
| 1 | 23.01.2019 | Vəndam qəsəbə 1 №-li tam orta məktəb saat 15:00 | Vəndam qəsəbəsi, Seyidqışlaq, Məmmədağalı, Həzrə və Bunud kəndləri | Prokuror M. V. Orucov |
| 2 | 20.02.2019 | Qəmərvan kənd məktəbi saat 15:00 | Qəmərvan, Tikanlı, Abrıx, Həmzəlli kəndləri və Bum qəsəbəsi | Prokuror M. V. Orucov |
| 3 | 13.03.2019 | Zarağan kənd məktəbi saat 15:00 | Zarağan, Daşca, Aydınqışlaq və Laza kəndləri | Prokuror M. V. Orucov |
| 4 | 17.04.2019 | Tüntül kənd məktəbi saat 15:00 | Tüntül, Nohurqışlaq və Yengicə kəndləri | Prokuror M. V. Orucov |
| 5 | 15.05.2019 | Böyük Pirəlli kənd məktəbi saat 15:00 | Böyük Pirəli, Kiçik Pirəli və Soltannuxa kəndləri | Prokuror M. V. Orucov |
| 6 | 19.06.2019 | Çarxana kənd məktəbi saat 11:00 | Çarxana, Hacıalılı, Mamaylı, Böyük Əmili, Kiçik Əmili, Tövlə, Ovcullu və Bayramkoxalı kəndləri | Prokuror M. V. Orucov |
| 7 | 17.07.2019 | İmamlı kənd məktəbi saat 11:00 | İmamlı, Xırxatala, Mirzəbəyli, Cığatelli və Corlu kəndləri | Prokuror M. V. Orucov |
| 8 | 28.08.2019 | Məlikli kənd məktəbi saat 11:00 | Məlikli, Zalam, Yenikənd, Mollaşıxalı, Topbağ, Əmirvan, Sırt-Yengicə, Bılıx və Sileyli kəndləri | Prokuror M. V. Orucov |
| 9 | 18.09.2019 | Nic qəsəbə tam orta məktəbi saat 15:00 | Nic qəsəbəsi, Çuxur Qəbələ və Zərgərli kəndləri | Prokuror M. V. Orucov |
| 10 | 16.10.2019 | Kürd kənd tam orta məktəb saat 15:00 | Kürd, Savalan, Qaradeyin, Quşlar və Bəyli kəndləri | Prokuror M. V. Orucov |
| 11 | 27.11.2019 | Mıxlıqovaq kənd məktəbi saat 15:00 | Mıxlıqovaq, Solquca, Dandıx, Uludaş, Yemişanlı və Kötüklü kəndləri | Prokuror M. V. Orucov |
| 12 | 18.12.2019 | Yeni Dızaxlı kənd məktəbi saat 15:00 | Yeni Dizaxlı, Dizaxlı, Zirik, Sarıhacılı, Şəfili və Şamlı kəndləri | Prokuror M. V. Orucov |

## Həmrəylik Günü qeyd olunub

Qəbələ şəhər 3 nömrəli tam orta məktəbdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə keçirilən bayram tədbirini məktəbin direktoru Ədilə Əliyeva açmışdır. Azərbaycanın Dövlət Himni səsələndikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar dünya azərbaycanlılarına müraciəti oxunmuşdur.

Məktəbin müəllimi Ramin Nəbiyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün yaranma tarixi barədə tədbir iştirakçılarına geniş məlumat vermişdir. O, bildirmişdir ki, ümummilli lider Heydər Əliyev bütün həyatı boyu dünya azərbaycanlılarının birliyini, həmrəyliyini daha da gücləndirmək uğrunda mübarizə aparmışdır. Təsadüfi deyil ki, dünya azərbaycanlılarının birinci qurultayı da məhz ulu öndərin təşəbbüsü ilə Bakıda keçirilmişdir.

Heydər Əliyev azərbaycanlıların birliyi üçün çox iş görmüşdür. O, qeyd edirdi ki, bizim müstəqil Azərbaycanımız bütün dünya azərbaycanlılarının vətənidir.

Ulu öndərin dünya azərbaycanlılarının vahid ideya, vahid vətən ətrafında daha sıx birləşməsi uğrunda apardığı mübarizə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Şagirdlərin ifasında vətənə, ulu öndərə, milli ordumuza həsr olunmuş şeirlər səsləndirilmişdir.

Tədbiri məktəbin direktoru Ədilə Əliyeva yekunlaşdırmışdır.

**Zəhra ALXASLI,**
**məktəbin VII sinif şagirdi.**

## Bayram tədbiri keçirilib

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində 31 Dekabr Dünya Azərbaycanlıların Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib.

Tədbirdə bildirilib ki, Dünya Azərbaycanlıların Həmrəyliyi Günü azərbaycanlılar tərəfindən yaşadıqları bütün ölkələrdə qeyd olunur.

Artıq 27 ildir ki, böyük coşqu ilə keçirilən bu bayramın16 dekabr 1991-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Alı Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü ilə elan edildiyi diqqətə çatdırılıb.

Tədbir uşaqların bayram şənliyi ilə davam etdirilib.

Sonda uşaqlara bayram hədiyyələri verilib.

**Hökümə İSMAYILOVA,**
**mərkəzin sosial iş üzrə mütəxəssisi.**